**Aytac Nəzər qızı HƏMİDOVA**
"Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi"nin dissertantı, Bakı, Azərbaycan
E-mail: aytac.hamidova92@mail.ru

# RÜFƏT ƏHMƏDZADƏNİN NƏZİRƏLƏRİNDƏ KLASSİK İRSİN YENİDƏN YARADILMASI

**Xülasə**

Bu məqalədə Rüfət Əhmədzadənin nəzirə yaradıcılığı fonunda Azərbaycan klassik poeziyasına satirik baxışının bədii-estetik mahiyyəti araşdırılıb. Məqalədə şairin İ.Nəsimi, M.Füzuli, M.Ə.Sabir, Qasım bəy Zakir, Əliağa Vahid, Süleyman Rüstəm, Osman Sarıvəlli və digər ədəbi şəxsiyyətlərin yaradıcılığına yazdığı nəzirələr vasitəsilə klassik poeziya formasını qoruyaraq yeni məzmun yaratdığı göstərilib. R.Əhmədzadənin bu nəzirələrdə dövrün ictimai eybəcərliklərini, sosial haqsızlıqları, rüşvətxorluğu, nadanlığı və saxta "alimləri" satirik şəkildə ifşa etməsi, klassik ənənənin davamı kimi deyil, yenidən yaradılması kimi təqdim olunub. Nəzirə janrında yazılmış bu poetik nümunələr Rüfət Əhmədzadənin ədəbi irsinin orijinallığını və klassik irsə yaradıcı münasibətini nümayiş etdirir. Məqalədə satiranın həm ədəbi funksiya, həm də cəmiyyət üçün daşıdığı əhəmiyyət vurğulanıb və bu nəzirələrin həm ideya, həm də forma baxımından yüksək sənətkarlıq nümunəsi olduğu əsaslandırılıb.

**Açar sözlər:** Rüfət Əhmədzadə, nəzirə poeziyası, klassik irs, satira, ədəbi ənənə.

**UOT:** 821.512.162.09
**DOI:** https://doi.org/10.54414/ESTC4440

## Giriş

Azərbaycan poeziyasının çoxəsrlik inkişaf yolunda nəzirəçilik ənənəsi mühüm hadisə kimi çıxış etmiş, dövrün sənətkarlarının ədəbi-estetik dünyagörüşünü, mövqe və baxış bucaqlarını ifadə etməyə imkan yaratmışdır. Klassik şairlərin sənət irsinə ehtiramla yanaşan, lakin onu təkrarlamaq əvəzinə, dövrün gerçəkliklərini eyni poetik forma içində yeni məzmunla təqdim edən şairlər bu janrın inkişafında mühüm rol oynamışdır. Bu baxımdan, Rüfət Əhmədzadənin nəzirə yaradıcılığı Azərbaycan ədəbiyyatında klassik poeziya ilə çağdaş satirik düşüncənin qovuşduğu bədii-estetik məkan kimi son dərəcə aktual bir tədqiqat mövzusudur. Nəzirəçilik ənənəsinin yeni məzmunda yaşadılması və bu vasitə ilə dövrün sosial-mənəvi reallıqlarının ifadəsi həm ədəbi irsin qorunması, həm də bədii novatorluğun göstəricisi baxımından önəmlidir. Mövzunun aktuallığı, həm də klassik poeziyanın yalnız estetik obyekt kimi deyil fəal bədii-metodik resurs kimi müasir şairlər tərəfindən istifadə olunması faktı ilə bağlıdır.

Mövzunun elmi yeniliyi Rüfət Əhmədzadənin nəzirələrində klassik irsin formal və məzmun səviyyəsində bədii şəkildə yenidən işlənməsi, satirik üslubla zənginləşdirilməsi və bu yolla klassik poetik strukturun müasir dövrə uyğunlaşdırılması ilə şərtlənir. Bu, nəinki forma baxımından, həm də ictimai-estetik funksiya baxımından yeni ədəbi yanaşma modelidir. R.Əhmədzadə klassik müəlliflərin fikirlərini təkrarlamır, əksinə, onlara cavab verir, polemikaya girir və nəticədə yeni poetik konsept yaradır.

Tədqiqatın nəzəri əhəmiyyəti ondadır ki, klassik nəzirəçilik ənənəsinə müasir estetik baxış bucağından yanaşmağa imkan verir, eyni zamanda satirik poeziyada nəzirənin spesifikasını, üslub xüsusiyyətlərini və funksional yükünü təhlil etməyə şərait yaradır. Bu, ümumilikdə Azərbaycan ədəbi ənənəsinin dinamikasını izləmək və inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından vacibdir.

Praktik əhəmiyyəti isə ondan ibarətdir ki, bu tədqiqat Rüfət Əhmədzadə kimi bir sənətkarın yaradıcılığının daha dərindən

mənimsənilməsinə, onun poeziyasının ədəbi mühitdə daha düzgün təbliğinə və tədris prosesinə inteqrasiyasına imkan yaradır. Əlavə olaraq, orta və ali məktəb proqramlarında klassik irsə yaradıcı münasibətin nümunəsi kimi təqdim oluna biləcək bir model təqdim edir.

**Əsas hissə**

Rüfət Əhmədzadənin poeziyasında satiranın özünəməxsus yeri olduğu kimi, onun içərisində nəzirə janrı da xüsusi diqqətə layiqdir. Şair klassik ədəbiyyatın forma və üslub xüsusiyyətlərinə dərindən bələd olduğu üçün bu zəmin üzərində öz satirik fikirlərini incə bir sənətkarlıqla ifadə etməyi bacarır. R.Əhmədzadə klassik şeirin estetik çərçivələrinə sadiq qalmaqla yanaşı bu çərçivələrdən istifadə edərək müasir cəmiyyətin sosial, mənəvi və əxlaqi problemlərini tənqid obyektinə çevirir. O, Nəsimi, Füzuli, M.Ə. Sabir kimi böyük sənətkarların ədəbi örnəklərinə müraciət etməklə yalnız forma və üslub ənənəsini davam etdirmir, eyni zamanda həmin klassik poetik mühitin ictimai yönümlü ruhunu da çağdaş dövrün problemləri ilə uzlaşdırır. Bu nəzirələrdə R.Əhmədzadə klassiklərin bədii-estetik imkanlarını satirik tənqid üçün məhsuldar zəminə çevirir və beləliklə, onların yaradıcılığını yeni dövrün problemləri ilə bağlı şəkildə yaşadır.

Nəzirə janrının əsas üstünlüyü olan poetik sərbəstlik ona imkan verir ki, şair klassik poetik üslubda yazsa da, ideya baxımından müasir tənqidi istiqamətə yönəlsin. Bu baxımdan R.Əhmədzadənin bəzi nəzirələri lirizmi və duyğusallığı ilə fərqlənsə də əksər nümunələrdə satirik ruh, ironik təhkiyə və tənqidi baxış ön plana çıxır. Şair klassiklərə nəzirə yazmaqla həm onların sənətkarlıq gücünü təqdir edir, həm də bu gücdən istifadə edərək müasir cəmiyyətin eybəcərliklərini, sosial ədalətsizlikləri və fərdi riyakarlıqları satirik tənqid obyektinə çevirir.

Tədqiqatçı Xəlilzadə Şəbnəm yazır ki: “Ədəbi janrlardan biri olan satira janrı da bəzi tənqidçilərin dediyi kimi, insanı tərbiyələndirmək, islah etmək kimi vəzifələri qarşısına məqsəd qoymayıb. Sadəcə bu məsələləri işıqlandırmaqla cəmiyyəti narahat edən nöqsanlara etirazını bildirərək tənqid edir, gülüşlə, ironiya ilə, məsxərəylə insanların daxili aləmində təlatümlər yaradır.” [8, s.334-335].

Rüfət Əhmədzadənin poeziyasında satirik təfəkkürün bədii ifadəsi çoxşaxəli və rəngarəng formalarda təzahür edir. Onun satirik yaradıcılığı yalnız fərdi müşahidələrin və ictimai təcrübənin məhsulu deyil, həm də klassik ədəbiyyatla qırılmaz bağlılığın və ədəbi ənənəyə bədii münasibətin ifadəsidir. Bu xüsusda nəzirə janrı xüsusi əhəmiyyət daşıyır. Ənənəvi poetik formaya müraciət etməklə şair bir tərəfdən klassiklərin sənətkarlığını yaşadır, digər tərəfdən həmin formaya çağdaş məzmun və satirik ruh gətirərək öz fərdi mövqeyini ortaya qoyur.

Məhz bu istiqaməti nəzərə alan tənqidçi Nizami Cəfərov haqlı olaraq belə bir mühüm qənaətə gəlir: "R.Əhmədzadənin satirik təfəkkürünün müəyyənləşməsində onun nəzirələri (söhbət hər yerdə ancaq satirik nəzirələrdən gedir) xüsusi rol oynadı və mənim fikrimcə, şairin satirik yaradıcılığının hərtərəfli təhlili hər hansı halda həmin nəzirələrin tədqiqindən başlanmalıdır." [2, s.169].

Bu fikir göstərir ki, Rüfət Əhmədzadənin nəzirə şəklində yazdığı satirik şeirlər onun satirik düşüncə sisteminin formalaşmasında əsas bünövrə rolunu oynamışdır. Nəzirələrdəki satirik üslub və bədii ifadə vasitələri sonradan onun digər poeziya nümunələrinə də sirayət edərək bütöv bir satirik dünyagörüşün poetik modelini yaratmışdır.

R.Əhmədzadənin Məhəmməd Füzulinin məşhur “Məndə Məcnundan füzun aşiqlik istedadı var” misrası ilə başlanan qəzəlinə yazdığı nəzirə əhəmiyyətli nümunə sayılır. Əsli saf və ülvi eşq ideyasını ifadə edən klassik beyti “Məndə hər şeydən əzəl, alimlik istedadı var, Hazıra nazir mənəm, alimin ancaq adı var” şəklində dəyişərək şair burada öz dövrünün sosial reallıqlarını tənqid obyektinə çevirir.” [1, s.33].

Xüsusilə, ictimai rəyə təsir göstərmək imkanına malik olan, lakin elmə və əsl alimliyə heç bir bağlılığı olmayan şəxslərin cəmiyyətin müxtəlif pillələrində yer tutmasını satirik dillə ifşa edir. Əslində, klassik qəzəldəki eşq idealı burada öz yerini elm və əxlaq ideyasına verir,

lakin həmin ideyanın məhv edildiyi bir dövrə ironiya ilə yanaşılır.

Rüfət Əhmədzadənin nəzirə yaradıcılığının əsas xüsusiyyətlərindən biri ondadır ki, o, yalnız bir neçə klassik şairlə məhdudlaşmır, müxtəlif dövrlərin və ədəbi nəsillərin nümayəndələrinə də nəzirələr yazaraq ədəbi əlaqələrin və poetik dialoqun coğrafiyasını xeyli genişləndirir. Nəsimi, Mirzə Ələkbər Sabir, Səməd Vurğun, M. Müşfiq, H. Arif, M. Rahim, Osman Sarıvəlli, Əliağa Vahid, Qasım bəy Zakir, Həsən Səyyar, Cəfər Cabbarlı kimi müxtəlif poetik üslub və ideya-estetik mövqeyə malik sənətkarların yaradıcılığına yazdığı nəzirələrdə Rüfət Əhmədzadə həm onların poetik nəfəsini yaşadır, həm də bu forma daxilində öz dövrünün sosial-mənəvi reallıqlarını əks etdirir.

Bu nəzirələr vasitəsilə o, klassik şairlərin sənətkarlığını təkcə formal qaydalar çərçivəsində təqlid etmir, əksinə, həmin ədəbi mirasla dialoqa girərək müasir cəmiyyətin problemlərini bədii şəkildə yenidən düşünür. R. Əhmədzadə bu nəzirələrdə müxtəlif sahələrdə rast gəlinən eybəcərlikləri – riyakarlıq, vəzifə hərisliyi, elmi-savadı olmadan şöhrət qazananlar, ictimai məsuliyyətsizlik, yalançı vətənpərvərlik və s. kimi aktual mövzuları satiranın gücü ilə ifşa edir.

Rəhim Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" kitabında oxuyuruq ki: "Satira – müəllifin hadisə və adamlara gülüş və qınaq yaradan münasibətinin daha sərt obrazıdır." [7, s.258].

Rüfət Əhmədzadənin satirik nəzirələri də bu anlayışa tam uyğun gəlir — o, klassik poeziyanın formasını qorumaqla, məzmunu kəskin ictimai tənqidlə zənginləşdirir. Şair, müasir cəmiyyətin yaltaqlıq, rüşvətxorluq, savadsızlıq və vəzifə hərisliyi kimi sosial problemlərini satiranın gücü ilə ifşa edir.

Nəzirələrin əksəriyyətində satirik qəhrəman tipi ön plana çəkilir. Bu tiplər hər biri konkret bir sosial təbəqənin, əxlaqi deformasiyanın və ya ictimai neqativliyin simvolu kimi təqdim olunur. R.Əhmədzadə həmin obrazları yumorla deyil kəskin ironiyalı və ifşaedici üslubla təqdim etməklə oxucunu düşündürmək, cəmiyyətin saflaşmasına təkan vermək istəyir.

Rüfət Əhmədzadənin satirik poeziyasında Mirzə Ələkbər Sabir irsi mühüm yer tutur. Xüsusilə Sabirin cəmiyyətin müxtəlif təbəqələrini və mənfi ictimai tipləri hədəf alan satirik şeirləri Rüfət Əhmədzadə üçün həm ideya, həm də poetik forma baxımından ilham mənbəyi olmuşdur. Şairin Sabirə yazdığı bir neçə nəzirə — "Mən deyən oldu, sən deyən", "Gör", "Dəyiş söhbəti" və digər şeirlər – bu istiqamətdə aparılan poetik dialoqun ən parlaq nümunələridir.

Bu nəzirələrdə R.Əhmədzadə M.Ə. Sabirin klassik qəhrəmanlarının yeni zaman kəsiyindəki "varislərini" ustalıqla təqdim edir. Əsrlər keçsə də, Sabirin tənqid etdiyi nadanlar, riyakarlıq edənlər, savadsız halda öyünənlər, xalqın deyil, şəxsi mənfəətin qayğısını çəkənlər cəmiyyətin içində mövcudluğunu qoruyur. Rüfət Əhmədzadə də bu mənfi tipləri öz dövrünün reallıqları fonunda yenidən səhnəyə gətirir və klassik qəhrəmanların çağdaş görünümlərini təqdim etməklə həm ictimai tənqidin miqyasını genişləndirir, həm də Sabirin tənqidi estetik irsinin nə qədər canlı və aktual olduğunu nümayiş etdirir.

R.Əhmədzadənin nəzirələrində Sabir üslubuna yaxın ifadə tərzi, xalq danışıq dilindən istifadə, qafiyə və ritmdə ustalıqla yaradılmış balans, məzmunun xalqın gündəlik həyatına aid olması şeirlərin təsir gücünü artırır. Ən başlıcası isə odur ki, o, Sabirin tənqidi baxış bucağını olduğu kimi təkrar etmir, onu öz dövrünün problemləri ilə əlaqələndirərək müasir bədii düşüncə prizmasından keçirmiş olur.

O, Mirzə Ələkbər Sabirin məşhur "Çığırma, yat, ay ac toyuq, yuxunda çoxlu darı gör" misrası ilə başlanan satirasına yazdığı nəzirədə də bu bədii prinsiplərə uyğun davranır. Klassikin əsərindəki obraz və fikir sistemini müasir sosial kontekstdə yenidən canlandırmaqla həm Sabir irsini yaşadır, həm də çağdaş dövrün mənfi ictimai tiplərini kəskin satira ilə ifşa edir. R.Əhmədzadənin nəzirəsində sosioloji və bədii təfəkkür uzlaşır, müasirləşmiş satirik qəhrəmanlar vasitəsilə klassik poeziya çağdaş problematikayla qovuşur.

"Mənəm deyən müfəttişin inanma çox da məkrinə,
Bu yanda canfəşanlığı, o yanda dərkənarı gör!

Yumurtanın nəticəsin payızda sayma, ay yazıq,
İndi olana şükr elə yekun zamanı yarı gör!" [4, s.164].

Bu nəzirədə Rüfət Əhmədzadə vəzifə və səlahiyyət sahiblərinin ətrafında toplaşan yaltaq, ikiüzlü tipləri kəskin tənqid edir. Şairin təqdim etdiyi müasir "müfəttiş" obrazı, həm zahirdə canfəşan görünməsi, həm də gizli niyyətləri ilə satirik qəhrəman kimi formalaşır. "Yumurtanın nəticəsini payızda sayma" misrası ilə o, aldadıcı təəssüratlara qapılmamağı, nəticəni zamanın göstərəcəyini vurğulayır. Bədii təzad, xalq hikməti və kəskin ironiya bu satiranın əsas təsir vasitələridir.

Rüfət Əhmədzadə Sabir irsinə nəzirələr vasitəsilə müraciət etməklə təkcə forma deyil, məzmun baxımından da klassik poeziya ilə çağdaş dövr arasında körpü yaradır. O, Sabirin "Mən deyən oldu, sən deyən?!" misrası ilə yadda qalan satirasına yazdığı nəzirədə yeni dövrün mənəvi-ictimai problemlərini hədəfə alır. R.Əhmədzadə bu əsərində də satirik ampluasını qoruyaraq, cəmiyyətin gözündən yayınmayan yalançı nüfuz, dayaz uğur anlayışları və özünü aldadan tiplərin aqibətini tənqid obyektinə çevirir. Şair xalq müdrikliyindən, ictimai ədalət hissindən ilhamlanaraq, oxucunu düşündürməyə və obyektiv reallıqla üzləşməyə çağırır.

"Mən demədimmi el gözü yaxşı, yamanı tez seçir…
Sən demədinmi el nədir, mənim günüm ki, xoş keçir…

Cəzandı, çək, görən deyir: "Qoy ölsün, əkdiyinbiçir…!
Gör necə dartılıb qulaq, mən deyən oldu, sən deyən?" [4, s.163].

Bu şeirdə Rüfət Əhmədzadə cəmiyyətin dürüstlük və ədalət meyarlarını önə çıxararaq, zamanla hər kəsin əməlinin dəyərləndiriləcəyini vurğulayır. "El gözü yaxşı, yamanı tez seçir" fikri xalqın obyektiv mühakimə gücünə işarədir. Şair bu misra ilə özünü haqlı çıxarmaqla yanaşı, mənəvi məsuliyyətdən yayınanları da ifşa edir. Əsərdə qınaq və cəza motivi – "əkdiyini biçmək" obrazı ilə – həyatın obyektiv qanunauyğunluğu kimi təqdim olunur. Satirik ironiya ilə verilən "Gör necə dartılıb qulaq" ifadəsi səhvin nəticəsinin qaçılmaz olmasına işarə edir. Beləliklə, Əhmədzadə Sabirin poetik üslubuna uyğun olaraq, xalqın ədalət hissini əsas alıb, öz dövrünün mənfi tiplərini tənqid atəşinə tutur.

Rüfət Əhmədzadənin nəzirələri yalnız klassik poetik formaya estetik ehtiram kimi dəyərləndirilməməlidir; bu nəzirələr həm də müasir həyatın satirik baxış bucağından dəyərləndirilməsi, köhnə estetik forma ilə yeni ictimai məzmunun sintezidir. O, Cəfər Cabbarlının yaradıcılığına yazdığı "Birbəbir" adlı nəzirəsində dövrün sosial-mənəvi problemlərini birbaşa və kəskin satira ilə təqdim edir. Şair bu nəzirəsində xalqla səmimi, açıq danışmaq istəyir və bunu "birbəbir" – yəni açıq, gizlətmədən demək ehtiyacı ilə əsaslandırır. R.Əhmədzadə burada obrazlar vasitəsilə dövrün mənfi tiplərini – rüşvətxorları, vəzifəpərəstləri, əxlaqi dəyərləri unutmuş şəxsləri satirik güzgüdə göstərir.

"Ay baba, gəl deyim sənə dövrü zamanı birbəbir
Sən say əlinlə, mən deym yaxşı-yamanı birbəbir".

Var elə naxələf, ona hər nə de, etməyir əsər
Canıma nuş olar, onun canını alsa dərdi –sər.
Fikri-xəyalı cibdədir, pambıq ilə boğaz kəsər,
İş başına gedib çıxıb döngə -dalanla, müxtəsər,

İcazə ver ki, bağlayım döngə-dalanı birbəbir,
Açım səninçin hali ol, yalan-palanı birbəbir.” [5, s.8].

Bu şeirdə Rüfət Əhmədzadə dövrünün sosial-psixoloji problemlərini bir xalq nümayəndəsinin dilindən, səmimi üslubla və satirik tonla dilə gətirir. “Birbəbir” ifadəsi həm poetik rədif funksiyası daşıyır, həm də şeirin əsas ideya xəttini müəyyənləşdirir: cəmiyyətin eybəcərliklərini açıq şəkildə ortaya qoymaq. Şeirdəki “naxələf” obrazı rüşvətə meyilli, mənəviyyatsız və şəxsi mənafedən başqa heç nə düşünməyən insan tipini təmsil edir. “Fikri-xəyalı cibdədir, pambıq ilə boğaz kəsər” misrası obrazlı dillə maddi maraq naminə insani dəyərlərin tapdanmasını göstərir. “İş başına gedib çıxıb döngə-dalanla” ifadəsi isə cəmiyyətin idarə sistemindəki saxtakarlıq və qanunsuz yollarla vəzifəyə gəlmə hallarını hədəfə alır. Şair xalqın dili ilə lakonik və ritmik şəkildə tənqidi gücləndirir, oxucuda həm gülüş doğurur, həm də dərindən düşündürür. Bu şeir klassik nəzirə forması ilə yazılsa da, əslində çağdaş satirik poeziyanın uğurlu nümunəsi kimi çıxış edir.

Rüfət Əhmədzadə klassiklərə yazdığı nəzirələr vasitəsilə həm poetik ənənəyə sadiqliyini nümayiş etdirir, həm də bu ənənənin satirik ruhunu çağdaş cəmiyyətin problemlərinə uyğunlaşdırır. Onun Süleyman Rüstəmə yazdığı “Mənə qalsa” adlı nəzirəsində dövrün sosial ədalətsizlikləri, mənəvi aşınmaları yumor və ironiya ilə ifadə olunur. R.Əhmədzadə burada səmimi xalq danışığına yaxın bir tonda öz arzu və iradəsini ifadə etməklə, sanki həm şikayətlənir, həm də oxucunu düşündürür. Bu nəzirədə əsas diqqət satirik hədəfə – yəni qiymətə mindirilmiş yalançılar, kələkbazlar və süni hörmət sahiblərinə yönəldilir.

“Heç vaxt belə asudə yatardım, mənə qalsa?
Hər arzuma, əlbəttə, çatardım, mənə qalsa.

Qiymətdə olan bəzi kələkbazları çoxdan.
Eylərdim ütül, tonla satardım mənə qalsa.” [4, s.142].

Bu şeirdə Rüfət Əhmədzadə cəmiyyətin reallıqları ilə şəxsi arzuları arasında ironik bir təzad yaradır. “Heç vaxt belə asudə yatardım” misrası sosial təzyiq və haqsızlıqların fərdi rahatlığa mane olduğunu vurğulayır. Şair burada “mənə qalsa” ifadəsini təkrarlayaraq, öz imkanlarının məhdudluğu fonunda mövcud ədalətsizliyi tənqid edir. İkinci bənddə isə “qiymətdə olan bəzi kələkbazlar” obrazı ilə sosial həyatın yalan üzərində qurulmasına işarə edilir. Onları “ütül” edib “tonla satmaq” istəyi isə həm bədii hiperbola, həm də dərin satirik məna daşıyır. Bu obrazlı yanaşma ilə R.Əhmədzadə cəmiyyətdəki saxtakarların ifşasını ustalıqla poetik dillə verir. Nəticə etibarilə, bu nəzirə həm klassik poetik ənənəyə bağlılıq nümunəsidir, həm də dövrün sosial satirasını ifadə edən təsirli bədii örnəkdir.

O, İmadəddin Nəsiminin “Sığmazam” qəzəlinin fəlsəfi-ruhani düşüncəsinə qarşı satirik-aləvi yanaşma sərgiləyərək müasir dövr insanının içtimai-etik və psixoloji portretini verir. Əgər Nəsimi “Sığmazam” qəzəlində insan mənliyinin ilahi ucalığını tərənnüm edirdisə, Əhmədzadə bu poetik formadan istifadə etməklə zahiri göstərişə, təkəbbürə və mənəvi deformasiyaya uğramış fərdin iç dünyasını tənqid obyektinə çevirir. Onun təqdim etdiyi satirik obraz təkəbbürlü, israfçı, özünü böyük sayan, lakin mənəvi boşluq içində olan müasir insanın karikaturasıdır. Beləliklə, bu nəzirə həm poetik ustalığın, həm də dərin ictimai ironiya gücünün bir nümunəsidir.

“Bir o qədər ki, şişmişəm, indi bu cana sığmazam
Lap belə doğrasan məni, əlli tiyana sığmazam.

Gül kimi restoran məkan, badəyə vermişəm təkan,
Cahan gözümdə girdəkan, bu girdəkana sığmazam.” [3, s.40].

Bu şeirdə “sığmazam” rədifi orijinal mənasından çıxarılaraq satirik şəkildə şişirdilmiş, lovğa insan obrazına tətbiq edilir. “Bir o qədər ki, şişmişəm” ifadəsi sosial status, vəzifə və süni nüfuzun sərhədsizliyini və bu tiplərin özlərini hansısa “ilahi varlıq” kimi görmələrini istehza ilə göstərir. “Lap belə doğrasan məni, əlli tiyana sığmazam” misrası isə bu tiplərin tənqidə və cəzaya qarşı da toxunulmazlıq iddialarını ironik dillə təqdim edir. İkinci beytdəki “restoran”, “badə”, “girdəkan” kimi sözlər müasir həyat tərzi və israfçılıqla assosiasiya edilir, yəni bu qəhrəmanlar üçün dünya yalnız ləzzət və kefdir. Şair klassik qəzəl formasından istifadə etsə də, onun içini dövrün satirik mənzərəsi ilə doldurur. Bu nəzirə həm forma, həm də məzmun baxımından klassik poeziya ilə çağdaş ictimai şüurun uğurlu sintezidir.

Osman Sarıvəllinin poeziyasında xalqın səsi, sadə insanların həyatı və məişət ünsürləri ön plandadır. Rüfət Əhmədzadə “Düz olur” nəzirəsində həmin xətti davam etdirir, lakin ona satirik çalar əlavə edərək dövrün tipik insanını – hər işini gizli şəkildə görən, lakin yenə də diqqət mərkəzində olan “dayday” obrazını təqdim edir. Burada ictimai rəyin təzyiqi, ictimai nəzarətin gücü və yalançı təmizlik maskası altında yaşayan tiplərə eyham verilir. Şeirin dili sadə, obrazlı və bir qədər istehzalıdır.

“Yazıq dayday xəlvət görür hər işi,
Yenə ondan söhbət olur, söz olur.
Sızlamasın bəs neyləsin bu kişi?
Gecə-gündüz hamı ona göz olur.” [6, s.75]

Bu şeirdə Rüfət Əhmədzadə satirik portret yaratmaqla gizli işlər görən, lakin ictimai qınaqdan yaxa qurtara bilməyən insan obrazını təqdim edir. “Dayday” obrazı tipik xalq satirasında tez-tez rast gəlinən, cəmiyyətin kölgəsində gizlənərək öz mənafeyini güdən bir figurdur. “Xəlvət görür hər işi” misrası bu obrazın ikiüzlü, ikili standartlarla yaşayan mahiyyətini açır. Lakin nə qədər gizlənsə də, “gecə-gündüz hamı ona göz olur” misrası ilə onun cəmiyyətin nəzarətindən qaça bilmədiyi, daim izlənildiyi fikri vurğulanır. Burada ictimai münasibətlərdə şəffaflığın pozulması və bunun nəticəsində yaranan etimadsızlıq ironik dillə tənqid olunur. Əhmədzadənin bu nəzirəsi həm gülüş doğurur, həm də düşündürür – onun satirası estetik və sosial funksiyanı birlikdə daşıyır.

Eyni zamanda bu nəzirələr Rüfət Əhmədzadənin həm ədəbi dünyagörüşünü, həm də bədii ustalığını aydın şəkildə ortaya qoyur. O, klassik şairlərin forma və fikir incəliklərini dərindən mənimsəməklə yanaşı, onları müasir kontekstdə yenidən yozur, bugünün insanı və cəmiyyəti haqqında satirik mövqeyini ifadə edir. R.Əhmədzadənin nəzirə yaradıcılığı yalnız bir janr təcrübəsi kimi deyil, eyni zamanda milli-mənəvi dəyərlərin, ictimai yaddaşın və bədii ənənənin yeni dövr üçün aktuallaşdırılması kimi də dəyərləndirilə bilər. Onun satirik nəzirələrindəki qəhrəmanlar artıq keçmişin yox, bu günün sosial reallığını əks etdirən konkret tiplərdir.

**Nəticə**

Rüfət Əhmədzadənin nəzirə poeziyası Azərbaycan ədəbi ənənəsinin klassik təməlləri ilə müasir satirik düşüncə arasında körpü rolunu oynayır. Onun M.Ə. Sabirə, Q. Zakirə, İ.Nəsimiyə, M. Füzuliyə və digər klassiklərə yazdığı nəzirələr ədəbi forma və bədii dəyər baxımından sələflərə bağlı olsa da, məzmun və ideya yükü baxımından tamamilə yeni və orijinaldır. Bu nəzirələrdə həm poetik yaddaş, həm də ictimai təfəkkür fəallığı öz əksini tapır. Şair klassiklərin üslubuna bələdliyini nümayiş etdirməklə yanaşı, satirik ifadə vasitələrindən istifadə edərək cəmiyyətin mənfi tiplərini və nöqsanlarını ifşa edir. Beləliklə, onun nəzirə yaradıcılığı həm ədəbi ənənəyə ehtiramın, həm

də bu ənənəni zamanla səsləşdirə bilən yaradıcı yeniliyin təcəssümüdür.

Rüfət Əhmədzadənin satirik nəzirələri Azərbaycan poeziyasında nəzirə janrının imkanlarını genişləndirməklə yanaşı, bu janrın çağdaş dövrdə də fəal yaşadılmasının mümkünlüyünü sübut edir. Onun poeziyası klassiklərin sənətkar missiyasını davam etdirən, eyni zamanda yeni zamanın suallarına cavab axtaran güclü satirik mətndir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Ağabəy G. XX əsrin ikinci yarısında satirik poeziya. Bakı: Elm və təhsil, 2019, 142 s.
2. Cəfərov N. Dünyaya lirik şair kimi gəlmişdi. Ədəbiyyat və incəsənət, 1982, 169 s.
3. Əhmədzadə R.Z. Bu mənəm, mən deyiləm. Bakı: Gənclik, 1976, 118 s.
4. Əhmədzadə R.Z. Hələlik. Bakı: Yazıçı, 1991. 192 s.
5. Əhmədzadə R.Z. Karın könlündəki. Bakı: Gənclik, 1970. 57 s.
6. Əhmədzadə R.Z. Məhəbbətlə, gülüşlə, Bakı, Yazıçı, 1981, 126 s.
7. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı, Mütərcim, 2008, 360 s.
8. Xəlilzadə Ş.Ş. Satiranin təkamülü və XX əsr ədəbiyyatında inikası. Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, Filologiya məsələləri, 2024;8:333-342.

**Aytaj Nazar HAMIDOVA**
PhD student at the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi, Baku, Azerbaijan

## RE-CREATION OF THE CLASSICAL HERITAGE IN THE VERSES OF RUFAAT AHMEDZADE

### Summary

This article examines the artistic and aesthetic essence of Rufaat Ahmadzade's satirical view of Azerbaijani classical poetry against the background of his versification work. The article shows that the poet created a new content by preserving the classical poetic form through his versifications of I. Nasimi, M. Fuzuli, M. A. Sabir, Qasim bey Zakir, Aliagha Vahid, Suleyman Rustam, Osman Sarivelli and other literary figures. R. Ahmadzade's satirical exposure of the social ugliness, social injustice, bribery, ignorance and false "scholars" of the era in these versifications is presented not as a continuation of the classical tradition, but as a re-creation. These poetic examples written in the genre of satire demonstrate the originality of Rufat Ahmadzadeh's literary heritage and his creative attitude towards the classical heritage. The article emphasizes the importance of satire for both literary function and society, and justifies that these satires are examples of high artistry in terms of both idea and form.

**Keywords:** Rufat Ahmadzadeh, satire poetry, classical heritage, satire, literary tradition.

**Айтадж Назар ГАМИДОВА**
Диссертант “Национального музея азербайджанской литературы имени Низами Гянджави, Баку, Азербайджан

## ВОСПОМИНАНИЕ КЛАССИЧЕСКОГО НАСЛЕДИЯ В СТИХАХ РУФААТА АХМЕДЗАДЕ

### Резюме

В статье рассматривается художественно-эстетическая сущность сатирического взгляда Руфаата Ахмедзаде на азербайджанскую классическую поэзию на фоне его стихотворного творчества. В статье показано, что поэт, сохраняя классическую поэтическую форму, создал новое содержание в своих стихотворениях И. Насими, М. Физули, М. А. Сабира, Касым-бека Закира, Алиаги Вахида, Сулеймана Рустама, Османа Саривелли и других литературных деятелей. Сатирическое обличение Р. Ахмедзаде социальных уродств, социальной несправедливости, взяточничества, невежества и лже-«ученых» эпохи в этих стихотворениях представлено не как продолжение классической традиции, а как ее воссоздание. Эти поэтические примеры, написанные в жанре сатиры, демонстрируют самобытность литературного наследия Руфата Ахмедзаде и его творческое отношение к классическому наследию. В статье подчёркивается значение сатиры как для литературной функции, так и для общества, и обосновывается, что эти сатиры являются образцами высокого мастерства как по идее, так и по форме.

**Ключевые слова:** Руфат Ахмедзаде, сатирическая поэзия, классическое наследие, сатира, литературная традиция.

**Daxil olub:** 06.07.2026